# ADAU-da PROFESSOR HACI HACIYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ELMİ-PRAKTİK KONFRANS

**Azərbaycan Dövlət Aqrar Universitetində təhsil müəssisəsinin məzunu, baytarlıq elmləri doktoru, professor Hacı Hacıyevin 100 illik yubileyinə həsr olunan "Baytarlıq elminin inkişafında innovativ texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlıq" mövzusunda elmi-praktik konfrans keçirilib.**





Konfrans iştirakçıları əvvəlcə Hacı Hacıyevin məzarını ziyarət ediblər. Sonra baytarlıq təbabəti və zoomühəndislik fakültəsində alimin adına yaradılan xüsusi auditoriyanın açılışını edib, çalışdığı fakültənin təhsil şəraiti ilə tanış olublar. İnzibati binanın iclas zalında konfrans başlayıb. Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, ADAU-nun məzunu Arif Rəhimzadə, Hacı Hacıyevin oğlu, AMEA-nın həqiqi üzvü Asəf Hacıyev, millət vəkilləri Pərvin Kərimzadə, Musa Quluyev, Xanlar Fətiyev, AMEA Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov, Baytarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru Siyalə Rüstəmova və ictimai xadimlər iştirak edib.

ADAU-nun rektoru, professor İbrahim Cəfərov konfransı açaraq görkəmli alimin həyat və fəaliyyətindən danışıb. Bildirib ki, professor Hacı Hacıyev görkəmli alim olmaqla yanaşı, həm də təcrübəli, idarəetmə qabiliyyətinə malik bir şəxsiyyət idi. Bu keyfiyyətlərinə görə o, 1962-ci ildə yoluxmayan daxili xəstəliklər və klinik diaqnostika kafedrasına müdir təyin olunub. Burada 16 il çalışan, püxtələşən professor 1978-ci ildən daha çətin və məsuliyyətli vəzifəyə - institutun elmi işlər üzrə prorektoru vəzifəsinə irəli çəkilib, 1984-cü ilədək bu vəzifəni layiqincə yerinə yetirib, ömrünün sonunadək yenə həmin kafedraya rəhbərlik edib.

Sonra konfrans iştirakçılarına Hacı Hacıyevin elmi fəaliyyətinə həsr edilən videoçarx təqdim edilib.

Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, ADAU-nun məzunu Eldar İbrahimov, Milli Məclisin Regional məsələlər komitəsinin sədri, ADAU-nun məzunu Arif Rəhimzadə, Baytarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru Siyalə Rüstəmova, AMEA Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, Baytarlıq ixtisasının 4-cü kurs tələbəsi Asəf Mirzəyev, Əczaçılıq və BSE kafedrasının müəllimi Şəfiqə Cəfərova professor Hacı Hacıyevin elmi fəaliyyətindən, idarəetmə bacarığından, insani keyfiyyətlərindən ətraflı məlumatlar veriblər.

Kənd təsərrüfatı texnikası kafedrasının dosenti, ADAU-nun professoru, Əməkdar kənd təsərrüfatı işçisi Akif Axundov və Biologiya kafedrasının müdiri, professor Zaur Hümbətov isə konfrans iştirakçılarına alimlə bağlı xatirələrini söyləyiblər.

Sonda Hacı Hacıyevin oğlu, AMEA-nın həqiqi üzvü, professor Asəf Hacıyev konfransın keçirilməsində zəhməti olan hər kəsə, eləcə də atasının xatirəsini əziz tutan professor-müəllim heyətinə minnətdarlığını bildirib.

Məlumat üçün bildirək ki, professor Hacı Hacıyev "Kənd təsərrüfatı heyvanlarının klinik müayinə sxemi", "Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəliklərinin diaqnostikası", "İribuynuzlu heyvanların həzm üzvlərinin yoluxmayan daxili xəstəlikləri", "Naftalan baytarlıqda", "Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəlikləri", "Ümumi terapiyanın əsasları və profilaktikası", "Baytarlıqda ümumi terapevtik texnika", "Qanın, sidiyin və mədə möhtəviyyatının nümunəsi", "Klinik diaqnostikadan praktikum" və s. fundamental dərslik və dərs vəsaitlərinin müəllifidir. Professorun 200-ə qədər elmi əsəri, məqalələri müxtəlif mətbuat səhifələrində dərc edilib. Onun dərslik və dərs vəsaitlərindən tələbələr bu gün də istifadə edir, bəhrələnirlər. Professor Hacı Hacıyevin böyük və şərəfli fəaliyyəti həmişə yüksək qiymətləndirilərək mükafatlandırılıb. O, "Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, bir çox medal və fəxri fərmanlarla təltif edilib, Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin dəfələrlə iştirakçısı olub, qızıl və gümüş medallara, diplomlara layiq görülüb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**